qarşısında xidmətlərinin yüksək qiymətləndirildiyinin daha bir təzahürü idi. 2011-ci ildə isə görkəmli mətbuat xadiminin anadan olmasının 100 illiyinin qeyd olunmasına dair Prezidentin Sərəncamı olmuşdur.

Bir sözlə, 87 il ömür sürmüş Nəsir İmanquliyev milli jurnalistikamızın korifey simalarından biri kimi onu yaxından tanıyanların qəlbində silinməz izlər buraxmış, bütün həyatını milli mətbuatımızın inkişafına, azərbaycançılıq ideologiyasının təbliğinə, cəmiyyətin obyektiv informasiya tələbatının ödənilməsinə həsr edərək, böyük bir məktəbin əsasını qoymuşdur. Bakı Dövlət Universitetinin auditoriyalarından mətbuata nüfuzlu müəlliminin xeyir-duası ilə gəlmiş çoxsaylı yetirmələri, söz sənətinə gətirdiyi insanlar - sonralar Azərbaycan jurnalistikasının tanınmış simalarına çevrilən neçə-neçə ziyalı üçün Nəsir İmanquliyev, sözün həqiqi mənasında, parlaq, nurlu və unudulmaz şəxsiyyətdir. Yüksək elmli, enerjili bir ziyalı olan Nəsir İmanquliyev jurnalistikamızda əbədi yaşamaq qüdrətinə qeyri-adi əməksevərliyi, fitri istedadı, dərin bilik və qabiliyətləri bahasına yüksələ bilmişdir. Onun yaşadığı şərəfli və mənalı ömür yolu əsl insana xas gözəl xüsusiyyətləri şəxsiyyətində cəmləşdirən alicənab və xeyirxah bir Azərbaycan ziyalısının əsrarəngiz həyat hekayəsidir.

*Rəyçi: prof. E. Quliyev*

**Г.Касумов,**
**Н.Наджафов**

**Патриарх национальной журналистики**

**Резюме**

В статье рассказывается о личности чья деятельность посвещена развитию и формированию азербайджанской журналистики, Н.Имангулиева, научно-педагогическая деятельность которого, широко отмечается в нашей Республике, как известного педагога просветителя.

**H. Gasimov,**
**N. Najafov**

**The Patriarch of National Journalism**

**Summary**

In the article it is spoken about Nasir Guliyev's scientific-pedagogical activity, who dedicated his life to the development of Azerbaijan press and culture, reimbursement with objective information of society and preparation of qualified journalist cadres. It is also noted that as a great educationist he did his best in the development of national core virtues.





*Metodika, qabaqcıl təcrübə*

# Təlimin metodik məsələləri: həndəsənin hazırlıq kursu

**Mönsüm Alışov**
***Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun prorektoru, dosent***

***Açar sözlər:*** *həndəsə, həndəsənin hazırlıq kursu, məzmun xətti.*
***Ключевые слова:*** *геометрия, подготовительный курс геометрии, содержательная линия, геометрическая величина.*
***Key words:*** *line of preliminary course of the geometry, maintenance, geometrycal quantity.*

Respublikamızda hər bir sahədə müşahidə olunan fasiləsiz inkişaf tendensiyası özünü təhsil sektorunda da göstərir. Çünki bu inkişafın əsasında ulu öndər Heydər Əliyevin ideyaları və həmin ideyaların işığında həyata keçirilən aydın və ardıcıl strateji kurs dayanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə, yüksək nəticələrin qazanılmasına geniş imkan və şərait yaradır. Ölkədə keçirilən təhsil islahatları təhsil siyasətinin səmərəliliyini artıran nəticələrə gətirib çıxarır.

Məktəb təhsilində aparılan müasir islahatlar və orta riyazi təhsilin məzmunu və tədrisi formalarının təkmilləşdirilməsi son on ildə daha da intensivləşdirilmişdir. Burada əsas məqsəd-məktəb fənlərinin məzmunu və strukturunun təkmilləşdirilməsi, müasir təlim metodları və prinsiplərinin müasir kompyuter texnologiyaları əsasında qurulması və şagirdlərin yaradıcı təfəkkürünün inkişaf etdirilməsindən ibarətdir. Müasir təhsil konsepsiyasınca şəxsiyyətin inkişaf etdirilməsinə xüsusi diqqət verilir. Belə ki, təlimə verilən əsas tələblərdən –şagirdlərin qazandıqları biliklərin praktik əhəmiyyət kəsb etməsi, varisliyin təmin edilməsi, ilk növbədə məktəb kursunda şagirdlərin həndəsəyə aid bilik, bacarıq və vərdişlərinin yüksək səviyyədə təmin edilməsinə xidmət edir.

Riyaziyyatdan milli kurikuluma əsasən məzmun xətlərindən ikisi "Həndəsə" və "Ölçmələr" I-VI siniflərdə həndəsə materialının tədrisi və şagirdlərdə kəmiyyətləri ölçmə və hesablamaya aid bacarıq və vərdişlərin formalaşdırılmasına həsr olunmuşdur. "Həndəsə" məzmun xəttinin mənimsənilməsinə aid ümumi nəticələr aşağıdakı məzmunda verilmişdir: Şagirdlər fəza təsəvvürləri əsasında nəzərdən keçirilən həndəsi fiqurların əlamətlərini və ya xassələrini təhlil etməyi; həndəsi münasibətləri ayırd etməyi və əsaslandırmağı; sadə həndəsi çevrilmələrdən, sadə həndəsi qurmalarda çertyoj vasitələrdən istifadə etməyi bacarmalıdırlar [1, 6].

Göründüyü kimi, "Həndəsə" və "Ölçmələr" məzmun xətləri bir-birilə sıx bağlıdır. "Ölçmələr" məzmun xəttinin əlaqələrini aşağıdakı kimi təsvir etmək olar:




Məktəbdə həndəsə materialının öyrədilməsinin əsas məqsədi – şagirdlərin fəza təfəkkürünü inkişaf etdirməkdən ibarətdir. Həndəsə materialının təlimi vəzifələrinə isə aşağıdakılar daxildir:

- I-VI sinif şagirdlərinin fəza təsəvvürlərinin formalaşdırılması;
- Şagirdlərin konstruktiv-həndəsi priyomlarla silahlandırılması.

Bununla əlaqədar bir sıra məsələlər ortaya çıxır:

- fəza təsəvvürü anlayışının həcmi və məzmununa nələr daxildir?
- bu təsəvvürləri hansı tədris materialları əsasında və hansı metodiki sistemlə formalaşdırmaq olar?
- məktəbdə həndəsənin öyrənilməsində nədən başlamaq lazımdır?
- fəza təsəvvürlərin formalaşdırılması mərhələləri hansılardır?
- şagirdlərin həndəsədən hazırlıq səviyyəsi necə olmalıdır?

İrəli sürülən problemlərlə əlaqədar bir sıra mülahizələri irəli sürmək olar.

Tam əsasla demək olar ki, həndəsənin I-VI siniflərdə təlimi strategiyası aşağıdakı prinsiplərə əsaslanır:

1) varislik;
2) müstəvi və fəza həndəsənin qarşılıqlı əlaqədə öyrənilməsi;
3) əyanilik;
4) təlimin inkişafetdirici xüsusiyyətləri.

Məktəbdə həndəsə təlimində varisliyin təmin edilməsi üçün aşağıdakılar nəzərə alınmalıdır:

- tədris materialı məzmununun dəqiq müəyyənləşdirilməsi;
- metodiki təminat sisteminin olması;
- şagirdlərin fəza təfəkkürlərinin formalaşdırılması və inkişaf etdirilməsi,
- şagirdlərin fərqli və yaş xüsusiyyətlərinin nəzərə alınması.

Məlumdur ki, I-VI siniflərdə öyrədilən həndəsə materialı VII-XI siniflərin planimetriya və streometriya sistematik kurslarının propedevtik (hazırlıq) kursudur. Məhz buna görə də I-VI siniflərin həndəsədən tədris materialı aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:

1) öyrədilən materialın vahid məzmun xətti olmalıdır;
2) bu materialın tədrisi məqsədləri və vəzifələri olmalıdır;
3) hesab və cəbr materialının öyrədilməsi prosesində köməkçi əyani-illüstrativ material rolunu oynamamalıdır;





4) həndəsə materialı məqsədəuyğun şəkildə və bütöv tədris ili ərzində müntəzəm qaydada paylanmalıdır;
5) tədris materialı şagirdlərin fəza təfəkkürünü və konstruktiv-həndəsi vərdişlərini formalaşdırmaq üçün kifayət etməli və VII-XI siniflərdə həndəsənin sistematik kursunu öyrənməyə hazırlamalıdır.

Bu xüsusiyyətlər Milli Kurikulumda da öz əksini tapmışdır.

Qeyd edək ki, fəza təsəvvürü dedikdə fəzada (müstəvi üzərində) həndəsi fiqurları, ölçüləri və qarşılıqlı vəziyyəti ilə əlaqədar hissi-əyani obrazlar nəzərdə tutulur. Bu obrazlar müvafiq obyektlərin şagird şüuruna bilavasitə təsirindən yaranır.

I-VI siniflərdə həndəsə materialını müstəvi fiqurlara və fəza fiqurlarına ayırıb, onları ayrılıqda və ya ardıcıl öyrətmək təcrübəsi müsbət nəticə verdiyi üçün qarşılıqlı əlaqədə öyrədilməsi daha məqsədəuyğun sayılmalıdır.

Bu sistemlə təlimin aşağıdakı üstünlükləri vardır:

1. Müstəvi və fəza fiqurları əsasən müstəvi fiqurlardan və ya onların proyeksiyasından ibarət olduğundan, daha asan mənimsənilir və məktəb sterometriya kursunun öyrənilməsi prosesində çətinlik meydana çıxmır. Müstəvi fiqurlara aid xassələr və qanunauyğunluqlar fəzada da doğrudur.

2. Fəza fiqurları və onların elementləri arasındakı qarşılıqlı əlaqələri I-VI siniflərin şagirdləri təsəvvür etməkdə müəyyən çətinlik çəkirlər. Zəruri təsəvvürlər əsasən fəza fiqurlarının modelləri əsasında yaradılır. Digər tərəfdən, kiçikyaşlı məktəblilər üçün fəza fiqurları (xüsusən rəngli)-kub, düzbucaqlı paralelepiped, kürə, silindr, konus həyatda mövcud olan obyektlər əsasında şagirdlərə daha çox tanışdır, nəinki nöqtə, düzxətt, parça və s.

Ona görə də müstəvi və fəza fiqurlarını qarşılıqlı əlaqədə öyrənmək daha əlverişlidir. Xüsusən fəza və müstəvi fiqurlarının modellərinin hazırlanması, onların qrafik təsviri kimi praktik işlər mənimsəmənin keyfiyyətini artırır.

3. Dünyanın dərk edilməsi-təfəkkür metodları olan analiz və sintezin qarşılıqlı əlaqəsində baş verir. Kiçik yaşlı məktəblilərin pisixoloji xüsusiyyətlərinə uyğun olaraq, bu proses tamdan hissəyə istiqamətində gedir. Ona görə də I-VI siniflərdə həndəsə materialının təlimini həcmli fiqurlardan başlamalı, müstəvi fiqurlarını isə onların elementləri kimi göstərmək daha əlverişli olur. Məsələn: kubun üzvləri – kvadratdır, tili-düz xətt parçasıdır və s. Bu fikri söyləyən metodistlər (E.V.Znamenskaya və b) nəzərə almalıdırlar ki, məsələni radikal şəkildə: "müstəvi fiqurlar">fəza fiqurları" və ya "fəza fiqurları">"və ya "fəza fiqurları">müstəvi fiqurlar" şəklində qoymaq olmaz. Təlim prosesində hər iki növ fiqurlardan qarşılıqlı şəkildə istifadə etmək lazımdır. Belə ki, həndəsi fiqurların modellərini hazırlayarkən, müstəvi fiqurların modellərini hazırlamaq işi çətinlik törətmir, digər tərəfdən, fəza fiqurları modellərinin hazırlanması–müstəvi fiqurlardan başlanır. Bütün bu işlərdə əyani-illüstrativ material vasitə olub aparıcı rol oynayır. Çünki əyanilik faktı və hipotezlərə, biliyə aparan təcrübi-eksperimental yol açır. Aşkar edilən qanunauyğunluqların əsaslandırılması isbat, mühakimə tələb edir. Aşağı siniflərdə həmin əsaslandırmalar intuitiv və əyani təsəvvür səviyyədə qəbul edilir. Bu prinsipin mahiyyəti məlum psixoloji fakta əsaslanır: mürəkkəb strukturlu fəza təfəkkürünün inkişafı.

Əyani-hərəki və əyani-obrazlı təfəkkürün formalaşması səviyyəsindən asılıdır. Bu təfəkkür formaları I-VI

siniflərdə həndəsə təliminin əsasını təşkil edir. Həqiqətən, bu təfəkkür formalarının formalaşması və inkişafında müxtəlif modellər, həcmli fiqurların modellərinin açılışı, şəkillər, illüstrativ materiallar mühüm rol oynayır.

Şagirdlərə həndəsi biliklərin verilməsi prosesində onların tədris fəaliyyətinin məzmunu gücləndirilməlidir. Onlarda fərdi-şəxsi yaradıcı keyfiyyətlərin tərbiyə olunmasında analiz, sintez, ümumiləşdirmə, müqayisə, analogiya və b. təfəkkür əməliyyatları mühüm metodik priyomlar kimi müntəzəm surətdə tətbiq olunmalıdır.

Həndəsə təlimində belə bir daxili prinsip var: həndəsənin öyrədilməsi və həndəsə vasitəsilə öyrətmə. Bu sonuncu forma həndəsi biliklərin praktik tətbiqinə aid olub, praktikada əldə olunan biliklərin yenidən nəzəri biliklərdə öz əksini tapması "nəzəriyyə>praktikada>nəzəriyyə" üçlüyünün qarşılıqlı əlaqəsini göstərir.

Məlumdur ki, həndəsə–deduktiv elmdir və uzun müddət bu fənnin öyrənilməsində formal–məntiqi yanaşma aksiomatik metoda əsaslanmışdır: yəni həndəsənin sistematik kursunun təlimi planimetriya">streometriya istiqamətində gedir. Bu uzunmüddətli prosesdə (təlimdə) həndəsənin bir elm kimi tələbləri və qanunları əsas götürülmüşdür. Pedaqogikanın və psixologiyanın təlimlə əlaqədar qayda və qanunlarına kifayət qədər yer verilməmişdir. Bunun təsiri I-VI siniflərdə həndəsənin başlanğıc kursunun təlimində də özünü büruzə verir.

Son illər məktəbdə riyazi təhsilin məzmunu və formalarının təkmilləşdirilməsi islahatlarında həndəsə təliminin elmi-psixoloji və elmi-pedaqoji cəhətlərinə yeni baxış tələqin olunur. Belə ki, həndəsənin deduktiv elm olması-onun bir fənn kimi olması deduktiv əsasda qurulmasını hökm kimi qəbul etmək olmaz. Həndəsə təlimində əyani-empirik aspekti əsas götürmək lazımdır. Şagirdlərdə fəza formaları haqqında təsəvvürün formalaşdırılması fasiləsiz proses olmaqla, I siniftən başlanmalıdır.

Belə yanaşma VI siniflərdə streometrik fiqurların modelləşdirilməsi işinə diqqətin artırılmasını təmin edər və əlbəttə, burada planimetrik fiqurlar fəza fiqurlarının tərkib hissələri (elementləri) kimi iştirak edir.

Məlumdur ki, bağçayaşlı uşaqlar və xüsusən məktəbəhazırlıq qrupu uşaqları müstəvi və fəza fiqurlarının əsas növləri haqqında əyani-intuitiv təsəvvürlərə malikdir. Ona görə də ibtidai siniflərdə həndəsə elementləri ilə tanışlıq–onların həyatdakı proobrazları ilə əlaqələndirilməlidir. Həyatdakı obyektlər bir obraz kimi şagirdlərin təsəvvürlərində canlanır və sanki onlar üçün bir ixtiraya çevrilir. Şagird belə anlardan sonra həyatdakı obyektlərə, əşyalara "yeni gözlə", "yeni məqsədlə" baxır və daxilən özündə belə bir fikir yaradır: bizim tanış olduğumuz həndəsi fiqurlar (anlayışlar) əvvəlcə həyatda mövcud olmuşdur. Məsələn, futbol topu, maşının təkəri, kafel pilitəsi, düzbucaqlı paralelpiped şəklində kəsmə daş və s. həyatda insanın tələblərini ödəyən vasitələr olub, hər biri–tətbiqi aidiyyətinə uyğun olaraq, müəyyən formaya, ölçüyə, kütləyə malikdir.

Bu obyektlər həyatda mövcud olub, insanlar öz tələbatlarını ödəmək üçün onlardan müxtəlif məqsədlər üçün istifadə edərkən, müxtəlif səmərəli yanaşmalar tətbiq etmişlər. Bu işlər hadisənin bir elm kimi formalaşmasında mühüm rol oynamışdır. Riyaziyyatın klassik tərifinə əsasən xalis riyaziyyat praktikadan yaranır, ondan ayrılaraq ümumiləşir və mücərrədləşir, yeni məna kəsb edir və tətbiq olunmaq üçün yenidən praktikaya





qayıdır. Məhz insan idrakının əməyi nəticəsində onun praktik fəaliyyəti səmərəli olmaqla, həm də yüngülləşir, ağır zəhmətdən azad olur.

Uşaqların həndəsi fiqurlarla tanışlığı görmə və hissi analizatorlar əsasında baş verir. Bağçayaşlı uşaqlara xas olan cəhət–onlar fəza obyektlərini (fiqurlarını) daha tez qavrayırlar, nəinki müstəvi fiqurları. Digər tərəfdən, oyuncaq kimi onlara təqdim edilən rəngli kublar, paralelpipedlər, şarlar və s. istifadəsinə görə də uşaqda maraq doğurur. Uşaq kubu daha tez əlinə götürür, nəinki düzbucaqlını və ya kvadratı, şarı daha rahat götürür, nəinki dairəni. Bütün bunlar uşaq üçün çox vacibdir. Onun əl barmaqları müstəvi fiqurları rahat götürmək vərdişlərinə hələ kifayət qədər hazır deyil. Həcmli fiqurlarla daha rahat rəftar edirlər. Deməli, kiçikyaşlı məktəblilər üçün fəza fiqurları ilə iş görmək həm əlverişli və həm də maraqlıdır.

## İstifadə edilmiş ədəbiyyat

1. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün riyaziyyatdan fənn kurikulumları.

2. Həmidov S.S. I-IV siniflərdə riyaziyyatın tədrisi metodikası. Bakı: ADNA, 2008.

3. Yaqubov M.H. və b. Riyaziyyat- 5 Bakı: Çaşıoğlu, 2009.

4. Пышкало А.М. Методика изучения элементов геометрии в начальных классах, М. : Просвещение, 1983.

M.Алышов

### Задачи методического указания подготовительных курсов геометрии

### Резюме

В статье затронуты следующие вопросы: роль и значение обучения элементам геометрии в I-VI классах, содержательные линии "Геометрия" и "Измерения" и взаимосвязь между ними, задачи изучения геометрических материалов I-VI классах; методические особенности изучения геометрического материала в этих же классах.

M.Alishov

### Methodic problems of the training of preliminary course of the geometry problems

### Summary

It`s spoken about the problems, wich give under: I-VI Role and importance of the training of geometry elements in classes, "Geometry" and "Measures" connection between maintenance lines, I-VI of the training of geometry elements in classes, I-VI Methodic features of the training of geometry material of the classes.